*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1-2, s.46-49*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1-2, p. 46-49*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 1-2, с. 46-49*

**UOT: 373.2:372.3**
https://doi.org/10.30546/670832.2025.01.1250

# Məktəbəqədər təhsil müəssisələrində uşaq rəsmlərinin bəzi xüsusiyyətləri haqqında

**Müəllif(lər):**

**Günay Babayeva**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** mrs.gbabayeva@gmail.com

**Açar sözlər:** məktəbəqədər təhsil, rəsm, qarma-qarışıq, uşaq bağçası, karandaş, akvarel, cisim, düetal, təsvir, natura, işıq-kölgə, proses, natürmort

**Annotasiya.** Məktəbəqədər yaşlı uşaqlarda gözəllik hissini tərbiyə etmək, əsrlər boyu həyatın sınağından çıxmış, lakin son dövrlər modernləşməyə məruz qalaraq unudulmuş tətbiqi sənət nümunələri vasitəsi ilə uşaqları həyata hazırlamaq indi Azərbaycan pedaqoji elminin qarşısında duran mühüm vəzifələrindən biridir. Məhz məktəbəqədər təhsil müəssisələrində keçirilən ardıcıl, sistemli məşğələlər yolu ilə uşaq ətraf aləmin dərk olunmasının spesifik formaları ilə tanış olur və həyatı bədii obrazlarla, rənglərlə dərketməyə istiqamətləndirilir. Onların estetik zövqü, yaradıcı təxəyyülü, mənəvi hissləri tərbiyə olunur, formalaşır və bununla da gələcək inkişafın əlverişli təməli qoyulur. Təlim yolu ilə kiçik yaşlı uşaqlarda estetik dünya görüşünün və estetik mədəniyyətin inkişafı təsviri sənət məşğələlərinin təşkili və quruluşundan, öyrədiləcək materialın məzmun və xarakterindən, uşaqların yaş, bilik və hazırlıq səviyyəsindən, eləcə də, tətbiq olunan üsul və vasitələrin pedaqoji səmərəsindən asılıdır.

Məhz bu səbəbdən məktəbəqədər təhsil sistemində təsvirçilik sənətinin təlim-tərbiyə funksiyası müasir tələblərə uyğunlaşdırılmalı, yeni təlim üsulları ilə xarakterizə olunmalıdır.

## Some characteristics of children`s drawings in preschool educational institutions

**Author(s):**

**Gunay Babayeva**
Nakhchivan Teachers Institute
Master student
**E-mail:** mrs.gbabayeva@gmail.com

**Key words:** preschool education, drawing, mixed media, kindergarten, pencil, watercolor, object, duet, image, nature, light and shadow, process, still life

**Abstract.** To educate a sense of beauty in preschool children and to prepare children for life through applied art examples that have stood the test of time for centuries but have been forgotten due to modernization in recent times is now one of the important tasks facing Azerbaijani pedagogical science. It is through consistent, systematic classes held in preschool educational institutions that children become acquainted with specific forms of perception of the surrounding world and are directed to perceive life with artistic images and colors. Their aesthetic taste, creative imagination, and spiritual feelings are nurtured and formed, thereby laying a favorable foundation for future development. The development of an aesthetic worldview and aesthetic culture in young children through training depends on the organization and structure of fine arts classes, the content and nature of the material to be taught, the age, knowledge, and level of preparation of children, as well as the pedagogical effectiveness of the methods and tools used.

For this reason, the educational function of fine arts in the preschool education system should be adapted to modern requirements and characterized by new teaching methods.

## О некоторых особенностях детского рисунка в дошкольных учреждениях

**Автор(ы):**

**ГЮНАЙ БАБАЕВА**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** mrs.gbabayeva@gmail.com

**Ключевые слова:** дошкольное воспитание, рисование, рисование, детский сад, карандаш, акварель, предмет, деталь, описание, натура, свет-тень, процесс, натюрморт

**Аннотация.** Воспитание чувства красоты у детей дошкольного возраста, подготовка детей к жизни с помощью образцов прикладного искусства, вышедших из испытания веками жизни, но в последнее время подвергшихся модернизации и забытых, является одной из важнейших задач, стоящих сейчас перед азербайджанской педагогической наукой. Именно через последовательные, системные занятия, проводимые в дошкольных учреждениях, ребенок знакомится с конкретными формами восприятия окружающего мира и ориентируется на осмысление жизни художественными образами, красками. Их эстетический вкус, творческая фантазия, духовные чувства воспитываются, формируются, тем самым закладывается благоприятная основа для дальнейшего развития. Развитие эстетического мировоззрения и эстетической культуры у детей младшего возраста через обучение зависит от организации и структуры занятий изобразительным искусством, содержания и характера изучаемого материала, возраста, уровня знаний и подготовленности детей, а также от педагогической эффективности применяемых методов и средств.

Именно по этой причине учебно-воспитательная функция изобразительного искусства в системе дошкольного образования должна быть адаптирована к современным требованиям, характеризоваться новыми методами обучения.

**Giriş.** Məktəbəqədər təhsil müəssisələrində uşaqların estetik dünya görüşlərinin və əl qabiliyyətlərinin inkişaf etdirilməsi təhsil müəssisələri qarşısında qoyulan ən mühüm vəzifələrdən biridir. Bu baxımdan uşaq bağçalarında uşaq rəsmlərini və rəsm etmə prosesini öyrənərkən bir sıra məsələlər bu və ya başqa bir dərəcədə aydınlaşdırılmağa çalışılmışdır; məsələn:

1. Uşaq yaradıcılığı prosesinin böyüklərin yaradıcılıq prosesindən fərqi;
2. Uşaq rəsminin çəkilən cismə bənzəməməsinin səbəbi;
3. Müxtəlif yaşlı uşaqların çəkdikləri rəsmin keyfiyyəti;
4. Müxtəlif üsulların, uşaqların rəsm çəkmək qabiliyyətlərinin inkişafına təsiri;
5. Müxtəlif yaş qruplarında tələb edilən vərdiş, bacarıq və sairə.

Ümumiyyətlə məktəbəqədər təhsil müəssisələrində rəsm dərslərini düzgün qurmaq üçün uşaqların çəkdiyi rəsmləri metodiki və pedaqoji nöqteyi-nəzərdən öyrənmək, yəni məzmun, şəkil və iş prosesi etibarilə tədqiq etmək lazımdır.

Uşaqların rəsm çəkmək qabiliyyətinin inkişafı üç böyük dövrə: bağça yaşlı uşaqlar dövrü (6 yaşa qədər), az yaşlı məktəbli dövrü (7-10 yaşa qədər) və orta yaşlı məktəbli dövrü (11-15 yaşa qədər) bölünür [3].

Bağça yaşlı uşaqlar ümumiyyətlə çox böyük maraq və həvəslə rəsm çəkirlər. Onlarda bu işə həvəs çox tez oyanır. Əllərinə kağız, karton, taxta, divar və ya başqa bir səth keçər-keçməz uşaqlar onların üzərini müxtəlif xətlər, nöqtələr, dairəciklər və sairə şəkillər çəkərək doldurmağa çalışırlar.

Bunlar hələ real təsvir olmayıb, yalnız uşağın mexaniki əl fəaliyyətinin nəticəsidir və gerçək rəsmdən hələ çox uzaqdır.

Bəzən uşaqların nəzəri təsadüfü cızılmış xətlərə düşdükdə, onlar bunu öz xəyallarının gücü ilə müəyyən bir cisimə bənzədirlər. Sonra uşaqlar bu "oxşayışı" artırmağa çalışmır, ona yeni xətlər və cizgilər əlavə edirlər. Nəticədə qarışıq xətlər arasından müəyyən bir cismin təsviri meydana çıxır. Əlbəttə, bu şəkil, oxşayış etibarı ilə o cismin həqiqi görünüşündən hələ çox-çox uzaq olur.

Bu dövrün sonrakı inkişaf mərhələsində uşaqlar artıq karandaşla "cızma-qara" eləməyib, onlara tanış olan bir cismin şəklini çəkmək üçün işə başlayırlar. Ancaq uşağın bu təşəbbüsünün ilk nəticələri hələ həqiqətdən o qədər uzaqdır ki, çox vaxt onun nə çəkmək istədiyini anlamaq belə çətindir.

Daha sonrakı mərhələdə uşaq rəsmlərində oxşayış artır və məzmun bir qədər aydınlaşır.

Bağça yaşlı uşaqların rəsmlərini təhlil edərək, tədqiqatçı-pedaqoqlar onları iki qrupa bölürlər: birinci "qarma-qarışıq" rəsmlərdir ki, bunların ya heç məzmunu yoxdur və yaxud da bizə anlaşılmayan şəkildədir; ikinci, "məzmunlu" rəsmlərdir ki, bunlarda məzmun bir qədər aydındır [4].

**Material və metodlar.** Ümumiyyətlə tədqiqatçılar uşaq rəsmlərini tədqiq edərək, onları dörd inkişaf mərhələsinə bölür:

1-ci mərhələni – onlar "proses" mərhələsi adlandırırlar; burada uşaq müəyyən bir şeyin şəklini çəkmək təşəbbüsündə olmayıb yalnız prosesin özü ilə kifayətlənir, ondan həzz alır, rəsmin məzmunu haqda düşünmür.

2-ci mərhələ – "qarma-qarışıq rəsm" mərhələsidir, burada bizə mənası anlaşılmayan şəkillər görünür. Bu müəyyən bir cismin təsviri üçün ilk təşəbbüsdür.

3-cü mərhələ – "qarma-qarışıq" detallı, lakin "məzmunlu rəsm" mərhələsidir. Bu cür rəsmlərdə bəzi aydın detallarla bərabər, müəyyən dərəcədə "qarma-qarışıq rəsm" detalları da vardır. Bu rəsmlər başqalarına çətin anlaşılır.

4-cü mərhələ – "məzmunlu rəsm" mərhələsidir. Bu cür rəsmlər isə başqaları tərəfindən asanlıqla anlaşılan şəkillər olur. Çəkilmiş cisimlərin sxematik surətdə işlənməsinə görə bu mərhələni tədqiqatçılar, həmdə "tam sxem mərhələsi" adlandırırlar.

Deməli uşaqlar böyüdükcə "qarma-qarışıq" rəsmdən "məzmunlu" rəsmə keçirlər. Sonuncu mərhələdə onlar, ilk əvvəl ayrı-ayrı cisimlər çəkir, sonralar isə süjetli rəsmlər çəkməyə başlayırlar.

Onların rəsmlərinin məzmunu müxtəlif olub, yaşadıqları mühitlə əlaqəlidir. Şəhərdə, kənddə, dağda, meşədə, səhrada, dəniz sahilində, dəmir yol ətrafında və s. yerlərdə yaşayan uşaqlar müvafiq məzmunlu müxtəlif rəsmlər çəkirlər. Lakin bu şəkillərin məzmununu aydınlaşdırmaq mümkündürsə də onlar həqiqətdən və reallıqdan

xeyli uzaqdırlar [4].

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Uşaq rəsmlərinin təsvir olunan cisimlərdən görünüş etibarilə çox fərqli olması, yalnız onların texniki vərdişlərinin və görmə təsəvvürlərinin zəifliyi ilə, yaxud cisimlərin formasını düşünməmələri ilə izah edilə bilməz. Bunun başqa səbəbləri də vardır; o da uşaqların öz rəsmlərinə olan münasibəti və onu başqa cür təsəvvür etmələridir. Uşaq rəsmlərinin bu xüsusiyyətini başa düşmək üçün həmin səbəblərlə də tanış olmaq lazımdır. Onlardan birincisi uşaqların rəsmi tez tələsik çəkmələridir. Uşaqların rəsm çəkmə prosesini diqqətlə müşahidə etdikdə onların karandaşı çox cəsarətlə ələ alıb işə başladıqlarını görərik.

Böyüklər üçün mürəkkəb və çətin olan cisimlərin rəsmi uşaqlara cox sadə və asan gəlir. Böyüklər təsvir etdikləri cisimləri forma etibarilə çətin və asan qruplara bölürlərsə, uşaqlar üçün çəkdikləri cisimlər arasında belə fərq yoxdur. Onlar üçün bütün cisimləri çəkmək eyni dərəcədə asandır. Uşaqlar hər hansı bir şeyi rəsm etməyə hazırdılar və burada heç bir texniki çətinlik onların qarşısını almır.

Uşaq rəsmlərinin sadə və primitiv olmasının ikinci səbəbi, onların rəsmə olan münasibətləridir. Uşaqlar rəsm çəkəndə onun nəticəsindən çox, prosesin özü ilə maraqlanırlar. Bundan başqa uşaqlar şəklin "necə" işlənməsinə fikir verməyib, "nəyin" işlənməsi ilə, yəni, başlıca olaraq, işin məzmunu ilə maraqlanırlar; onun zahiri-texniki cəhətlərinə isə fikir vermirlər. Onlar çəkdikləri şəkilləri cismin həqiqi görünüşünə bənzətməyə səy etmir, şəkillərin formasının düzgünlüyü haqda düşünmür və çox vaxt çəkdikləri cismin yalnız bəzi əlamətləri ilə kifayətlənirlər [2]. Buna görə uşaqların rəsmlərində bir sıra yanlışlıqlar müşahidə edilir; məsələn: fiziki qanunların və cisimlərin ölçülərinin pozulması, cisimlərin ayrı-ayrı hissələri arasında əlaqə uyğunsuzluğu, rəsmlərin kağız üzərində düzgün yerləşdirilməməsi və s.

Uşaq rəsmlərindəki "nöqsanların" üçüncü səbəbi, onların öz rəsmlərinə tənqidi yanaşmamalarıdır. Uşaqlar çəkdikləri rəsmlərindəki nöqsanları görmədikləri üçün həmişə öz işlərindən razı qalırlar. Bunun da səbəbi , uşaq xəyalının xüsusiyyətidir. Onların xəyalı çox canlı və fantaziyalarla doludur. Bu, onların oynadıqları oyunlarda da özünü xüsusilə aydın göstərir. Məsələn: onlar içərisinə girdikləri qutunu avtomobil kimi və ya mindikləri çubuğu at kimi təsəvvür edirlər. Onların bu xəyali qabiliyyətləri rəsm çəkdikləri zaman da öz təsirini göstərir. Əgər uşaq adi bir karton və ya taxta bir qutunu avtomobil kimi təsəvvür edib minirsə, avtomobili təsvir etdikdə, onun sadə şəkli ilə də kifayətlənə bilər. O, avtomobil təsəvvür edib çəkdiyi oxşar fiqura təkər və ya başqa hissələrdə əlavə edirsə, rəsmdən kifayətləndiyi heç də təəccüblü deyildir. Uşaqların xəyalı, rəsmin çatışmayan cəhətlərini tamamladığı üçün o, rəsmi həqiqətdə olduğu kimi deyil, öz xəyalında təsəvvür etdiyi kimi qavrayır.

**Nəticə və müzakirə.** Aparılmış tədqiqatın nəticələri göstərir ki, uşaq çəkdiyi şəkildə həqiqətdə olduğundan artıq "şeylər" görür, yəni o, çəkdiyi şəklə baxarkən, xəyalı ilə onu "tamamlayır". Buna görə uşaqlar bir cismi rəsm etdikdə, çox vaxt onu bir neçə xətt vasitəsi ilə ifadə edib, bununla da işi qurtarmış hesab edirlər; onlar şəkildəki xətaları görməyir və onun rəsm edilən cismə bənzəyib-bənzəməməsinə laqeyd baxırlar. Uşaqlar çox vaxt bu rəsmlərlə əylənir, müxtəlif səsləri təqlid edir və şəkillərdə təsvir edilənlərlə guya danışırlar.

Bağça yaşında uşaq rəsmlərindəki xüsusiyyətlərin dördüncü səbəbi, bu rəsmlərdə uşaqların cisimlərə öz emosional əlaqələrini göstərmələridir. Rəsm çəkərkən uşaqların hissləri şüurlarına üstün gəlir və onlar rəsmi bəzəməyə çalışırlar. Məsələn, onlar bir rəngli cismi bir neçə əlvan rənglə təsvir edirlər. Bu, uşaqların cismin rəngarəng olmadığını bilmədiklərindən deyil, onların ümumiyyətlə çəkdiklərini bəzəməyə həvəsli olduqlarından irəli gəlir.

Uşaq rəsmlərindəki xüsusiyyətin əsas səbəblərindən biri də uşaqların təbiəti müşahidə etmək təcrübəsinin azlığıdır. Yuxarıda qeyd etdiklərimizin hamısı bağça yaşlı uşaqların və qismən də az yaşlı məktəblilərin rəsmlərindəki xüsusiyyətləri izah edir.

**Yekun nəticə.** Yekun olaraq aparılan tədqiqatlardan belə bir nəticəyə gəlmək olar ki, bağça yaşlı uşaqların estetik dünya görüşlərini və əl qabiliyyətlərini inkişaf etdirilməsi üçün pedaqoji işin keyfiyyətinin yüksəldilməsi və müasir metodik yanaşmaların tətbiqi vacibdir. Buna görə də, bu sahədə mütəmadi tədqiqatların aparılması, yeni təlim metodlarının və texnologiyalarının

təkminləşdirilməsi gələcəkdə bu sahənin daha da inkişaf etməsinə səbəb olacaqdır.

**Ədəbiyyat**

1. Abbasov, Ə.T. Şagird nailiyyətinin qiymətləndirilməsi: müasir baxışlar və konseptual yanaşmalar. Azərbaycan məktəbi, – 2007. № 4, – s.36-39.
2. Allahverdiyeva, H.R. İbtidai siniflərdə təsviri incəsənət və onun tədrisi metodikası fənninin "Naturadan rəsm" üzrə məşğələlərində praktik işlərin yerinə yetirilməsinə dair / H.R.Allahverdiyeva. – Naxçıvan: Məktəb, – 2024. – 86 s.
3. Atayev, S. İbtidai siniflərdə təsviri sənətin tədrisi metodikası / S.Atayev. – Bakı: Nurlan, – 2001. – 206 s.
4. Qaziyev, A. Rəsmin tədrisi üsulu (2-ci nəşr) / A.Qaziyev. – Bakı: – 2010. – 81 s.

*Məqalə sənətşünaslıq üzrə fəlsəfə doktoru Həbibə Allahverdiyeva tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 16.01.2025, son daxilolma – 13.02.2025, qəbulolunma – 06.03.2025